# Əmanətlərin Sığortalanması Fondu

## 31 dekabr 2024-cü il tarixinə

## Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun Maliyyə Hesabatları
və Müstəqil Auditorların Hesabatı

"KPMG Audit Azərbaycan" MMC
Port Baku Cənub Qülləsi
Neftçilər prospekti 153
Bakı, Azərbaycan AZ1010
+994 12 404 89 10

# Müstəqil Auditorların Hesabatı

### Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurasına və İcraedici orqanına

## Rəy

Biz Əmanətlərin Sığortalanması Fondunun ("Fond") 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə tamamlanan il üzrə mənfəət və ya zərər və sair məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də mühüm mühasibat uçotu siyasətləri və sair izahedici məlumatları əhatə edən qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizim rəyimizə görə, əlavə edilən maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Fondun 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Mühasibat Uçotu Standartları Şurasının dərc etdiyi MHBS Mühasibatlıq Standartlarına (MHBS Mühasibatlıq Standartları) uyğun olaraq düzgün əks etdirir.

## Rəy üçün əsas

Biz audit yoxlamasını Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Həmin standartlara əsasən bizim məsuliyyətimiz hesabatımızın "*Maliyyə hesabatlarının auditinə görə auditorların məsuliyyəti*" bölməsində təqdim edilir. Biz Mühasiblər üçün Beynəlxalq Etik Standartlar Şurasının Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) (IESBA Məcəlləsi) və Azərbaycan Respublikasında maliyyə hesabatlarının auditinə tətbiq olunan etik tələblərə əsasən Fonddan müstəqilik və bu tələblər və IESBA Məcəlləsi üzrə digər etik öhdəliklərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

## Maliyyə Hesabatlarına görə Rəhbərliyin və İdarəetməyə Məsul Şəxslərin Məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının MHBS Mühasibatlıq Standartlarına uyğun hazırlanmasına və düzgün təqdimatına, dələduzluq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflərin müşahidə olunmadığı maliyyə hesabatlarının hazırlanması üçün öz qənaətinə əsasən zəruri saydığı daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Rəhbərliyin Fondu likvidasiya etmək və ya əməliyyatları dayandırmaq niyyətinin olduğu və ya qeyd edilən tədbirlərdən başqa real alternativinin olmadığı hallar istisna olmaqla, maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik Fondun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsi, müvafiq hallarda fəaliyyətin fasiləsizliyi ilə bağlı məsələlərin açıqlanması və hesabatların fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər Fondun maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.



Müstəqil auditor: "KPMG Audit Azərbaycan" MMC Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq yaradılmışdır və məsuliyyəti zəmanətlə məhdudlaşdırılmış ingilis şirkəti olan "KPMG International Limited" şirkətinə bağlı müstəqil üzv şirkətlər şəbəkəsinin üzvüdür.

## Maliyyə Hesabatlarının Auditinə görə Auditorların Məsuliyyəti

Bizim məqsədimiz maliyyə hesabatlarında, dələduzluq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi əhatə edən auditor hesabatını təqdim etməkdən ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur, lakin bu BAS əsasında aparılmış auditin əhəmiyyətli təhrifi hər zaman aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhv nəticəsində yarana bilər və istifadəçilərin bu maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlara ayrı-ayrılıqda, yaxud ümumilikdə təsir edə bilməsi əsaslı şəkildə ehtimal edildiyi halda əhəmiyyətli hesab edilir.

BAS əsasında aparılmış audit çərçivəsində biz bütün audit müddətində peşəkar mühakimə yürüdür və peşəkar inamsızlığımızı qoruyub saxlayırıq. Biz həmçinin:

— Dələduzluq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, maliyyə hesabatlarının əhəmiyyətli təhrifləri riskini aşkar edir və qiymətləndirir, həmin risklərə uyğun audit prosedurlarını işləyib hazırlayır və icra edir, rəyimizi bildirmək üçün yetərli və müvafiq audit sübutunu əldə edirik. Dələduzluq nəticəsində yaranmış əhəmiyyətli təhrifin aşkarlanmaması riski səhv nəticəsində yaranmış əhəmiyyətli təhrifin aşkarlanmaması riskindən daha yüksəkdir, çünki dələduzluq gizli sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, məlumatın təhrifli təqdimatı və ya daxili nəzarətə əməl olunmamasından ibarət ola bilər.

— Auditlə bağlı daxili nəzarətə Fondun daxili nəzarət sisteminin səmərəliliyinə dair rəyin bildirilməsi üçün deyil, şəraitə uyğun zəruri audit prosedurlarının planlaşdırılması məqsədilə baxırıq.

— İstifadə edilmiş uçot siyasətinin məqsədəuyğunluğunu və rəhbərlik tərəfindən aparılmış uçot qiymətləndirmələrinin və əlaqəli açıqlamaların kafiliyini qiymətləndiririk.

— Rəhbərlik tərəfindən mühasibat uçotunun fasiləsiz aparılma prinsipinin istifadə edilməsinin məqsədəuyğunluğunun və əldə edilmiş audit sübutları əsasında Fondun fəaliyyətini fasiləsiz davam etdirmək imkanını əhəmiyyətli dərəcədə şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olması qənaətinə gəldiyimiz halda, audit hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli açıqlamalara diqqət cəlb etməliyik, bu cür açıqlamalar qeyri-dəqiq olduğu halda isə fərqli rəy verməliyik. Gəldiyimiz nəticələr audit hesabatımızın hazırlandığı tarixədək əldə edilmiş sübutlara əsaslanır. Bununla belə, sonrakı hadisələr və ya şərait Fondu fasiləsiz fəaliyyətini dayandırmağa məcbur edə bilər.

— Açıqlamalar da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə maliyyə hesabatlarında əsas əməliyyatların və hadisələrin ədalətli şəkildə əks etdirilib-etdirilməməsini dəyərləndiririk.

Biz, digər məsələlərlə yanaşı, auditin planlaşdırılan həcmi və müddəti və mühüm audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlarla bağlı idarəetməyə məsul şəxsləri məlumatlandırırıq.

Hazırkı müstəqil auditorlar hesabatının hazırlanması ilə nəticələnmiş audit tapşırığının rəhbəri:

Səbuhi Əbilhəsənli
"KPMG Audit Azərbaycan" MMC
Bakı, Azərbaycan Respublikası
18 Mart 2025

| *Azərbaycan manatı ilə* | Qeyd | 31 dekabr 2024 | 31 dekabr 2023 |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 8 | 18,673,242 | 66,501,389 |
| Əks-repo müqavilələri | 9 | 11,093,038 | - |
| Hesablanmış sığorta premiyaları | 7 | 20,550,445 | 19,174,391 |
| Sair maliyyə aktivləri | 10 | 4,194,956 | 7,070,588 |
| Borc qiymətli kağızlarına investisiyalar | 12 | 75,141,506 | 57,368,754 |
| Dövlət veksellləri | 11 | 457,319,531 | 456,630,834 |
| Kompensasiya üzrə debitor borcları | 13 | 11,246,738 | 43,009,000 |
| Qeyri-maddi aktivlər | | 573,383 | 551,678 |
| Binalar və avadanlıqlar | | 863,067 | 1,091,139 |
| **Cəmi aktivlər** | | **599,655,906** | **651,397,773** |
| **Öhdəliklər** | | | |
| Kompensasiya ödənişləri üzrə öhdəliklər | 15 | 27,568,085 | 200,302,385 |
| Borc öhdəlikləri | 14 | 180,000,000 | 247,500,000 |
| Sair öhdəliklər | | 2,885,456 | 571,917 |
| **Cəmi öhdəliklər** | | **210,453,541** | **448,374,302** |
| **Kapital** | | | |
| Yığılmış zərər | | (551,894,397) | (738,073,291) |
| Əlavə kapital qoyuluşu | 24 | 941,096,762 | 941,096,762 |
| **Cəmi kapital** | | **389,202,365** | **203,023,471** |
| **Cəmi öhdəliklər və kapital** | | **599,655,906** | **651,397,773** |

Bu maliyyə hesabatları 18.03.2025 tarixində rəhbərlik tərəfindən təsdiqlənmiş və onun adından aşağıdakı şəxslər tərəfindən təsdiqlənmişdir:

Əmanətlərin Sığortalanması Fondu * Azərbaycan Respublikası * ƏSF

Tural Piriyev
İcraçı direktor

Vüqar Aslanzadə
Maliyyə direktoru

*Əmanətlərin Sığortalanması Fondu*
***Mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat***

| *Azərbaycan manatı ilə* | **Qeyd** | **2024** | **2023** |
|---|---|---|---|
| Sığorta premiyaları | 16 | 81,846,164 | 76,440,388 |
| Faiz gəlirləri | 19 | 6,748,964 | 6,630,889 |
| Lisenziyası ləğv edilmiş banklar tərəfindən geri qaytarmalar | 20 | 105,948,612 | 94,557,827 |
| Kompensasiya xərcləri | 17 | (153,260) | (240,135,963) |
| İnzibati və sair əməliyyat xərcləri | 18 | (6,761,556) | (6,290,444) |
| Maliyyə aktivləri üzrə gözlənilən kredit zərəri | 9,11 | (1,021,966) | (2,873,270) |
| Xarici valyuta mübadiləsi üzrə (zərər)/gəlir | | (200,400) | 188,954 |
| Faiz xərcləri | | (326,016) | (404,273) |
| Sair gəlirlər | 21 | 98,352 | 1,516,027 |
| **İl üzrə mənfəət/(zərər)** | | **186,178,894** | **(70,369,865)** |
| **İl üzrə cəmi məcmu gəlir/(zərər)** | | **186,178,894** | **(70,369,865)** |

*Əmanətlərin Sığortalanması Fondu*
***Kapitalda dəyişikliklər haqqında hesabat***

| *Azərbaycan manatı ilə* | **Əlavə kapital qoyuluşu** | **Yığılmış zərər** | **Cəmi** |
|---|---|---|---|
| **1 yanvar 2023-cü il tarixinə qalıq** | **941,096,762** | **(667,703,426)** | **273,393,336** |
| il üzrə məcmu zərər | - | (70,369,865) | (70,369,865) |
| **31 dekabr 2023-cü il tarixinə qalıq** | **941,096,762** | **(738,073,291)** | **203,023,471** |
| il üzrə məcmu gəlir | - | 186,178,894 | 186,178,894 |
| **31 dekabr 2024-cü il tarixinə qalıq** | **941,096,762** | **(551,894,397)** | **389,202,365** |

| *Azərbaycan manatı ilə* | Qeyd | 2024 | 2023 |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Vergidən əvvəlki mənfəət/(zərər) | | 186,178,894 | (70,369,865) |
| *Düzəlişlər:* | | | |
| Əmlak və avadanlıqların amortizasiyası | | 255,726 | 238,302 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | | 99,990 | 94,211 |
| Maliyyə aktivləri üzrə gözlənilən kredit zərəri | 10, 11 | 1,021,966 | 2,873,270 |
| Faiz gəlirləri | 19 | (6,748,964) | (6,630,889) |
| Faiz xərcləri | | 326,016 | 404,273 |
| Məzənnə fərqləri | | 200,400 | (188,954) |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | **181,334,028** | **(73,579,652)** |
| Hesablanmış sığorta premiyalarında artım | | (1,376,054) | (1,680,303) |
| Kompensasiya üzrə debitor borclarında azalma/(artım) | | 31,762,262 | (43,009,000) |
| Sair maliyyə aktivlərində azalma | | 1,866,363 | 4,208,636 |
| Kompensasiya ödənişləri üzrə öhdəliklərdə azalma/(artım) | | (172,769,851) | 177,716,656 |
| Sair öhdəliklərdə artım | | 2,313,539 | 51,393 |
| **Dövriyyə kapitalında dəyişikliklər** | | **(138,203,741)** | **137,287,382** |
| Alınmış faiz gəlirləri | | 5,759,731 | 5,049,799 |
| Ödənilmiş faizlər | | (326,016) | (404,273) |
| **Əməliyyat fəaliyyəti üzrə əldə edilən xalis pul vəsaitləri** | | **48,564,002** | **68,353,256** |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Əmlak və avadanlıqların alınması | | (27,654) | (94,964) |
| Qeyri-maddi aktivlərin alınması | | (121,695) | (65,451) |
| Borc qiymətli kağızlarına investisiyaların alınması | | (51,072,332) | (20,758,657) |
| Əks-repo müqavilələrinin alınması | | (90,127,637) | - |
| İnvestisiya qiymətli kağızlarının ödəmə müddətindən daxilolmalar | | 33,472,251 | 7,561,012 |
| Əks-repo müqavilələrinin ödəmə müddətindən daxilolmalar | | 79,034,599 | - |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri** | | **(28,842,468)** | **(13,358,060)** |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Borc vəsaitlərinin qaytarılması | | (67,500,000) | (22,500,000) |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə xaric olan xalis pul vəsaitləri** | | **(67,500,000)** | **(22,500,000)** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis (azalması)/artım** | | **(47,778,466)** | **32,495,196** |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | | **66,501,389** | **33,815,273** |
| Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | | (49,681) | 190,920 |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | 8 | **18,673,242** | **66,501,389** |